Azərbaycan.- 2021.- 21 aprel. S. 1;6.



# İlham Əliyev mədəni irsimizi də əsarətdən xilas etdi

## Ermənistanın Azərbaycanın tarixinə sahiblənmək planları iflasa uğradı

*Zərdüştlüyün qədim atəşpərəstlik məbədi Bakıda, Qafqazın ən qədim kilsələrindən biri - Qafqaz Albaniyası kilsəsi Şəki yaxınlığında və müsəlman aləminin ən qədim ibadətgahlarından biri olan, 743-cü ildə tikilmiş məscid Şamaxıda yerləşir.*

Bu tarixi faktlar Azərbaycanın bütün dinlərin, inancların qovuşduğu unikal məkan olmasının göstəricisidir.

Əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycanda tarix boyu digər din və mədəniyyətlərə dözümlü münasibət nümayiş etdirilib, zamanın heç bir dönəmində ölkəmizdə dinlərarası hansısa problem yaşanmayıb.

***Ardı 6-cı səh.***

# İlham Əliyev mədəni irsimizi də əsarətdən xilas etdi

## Ermənistanın Azərbaycanın tarixinə sahiblənmək planları iflasa uğradı



*Əvvəli 1-ci səh.*

Xalqımızın təməl dəyərlərindən olan dini dözümlülük, bütün inanclara humanist yanaşma sayəsində insanlar mənsub olduqları dinə aid ayinləri məscidlərlə yanaşı fəaliyyət göstərən sinaqoq və kilsələrdə də sərbəst şəkildə icra edirlər.

Azərbaycanda hər zaman digər xalqlara məxsus dini abidələr qorunaraq saxlanılmış, bərpa olunmuşdur. Ölkəmizdə xristian pravoslav kilsəsinin fəaliyyətinin bərpası, Bakıda katolik kilsəsinin inşa olunması Azərbaycandakı dini müxtəlifliyin və bu fərqliliyə insanların tolerant münasibətinin bariz nümunəsidir.

Müdrik xalqımız hətta ona düşmənçilik edənlərə qarşı da həmişə tolerantlıq nümayiş etdirib. Bu gün də Bakının mərkəzində ermənilərin dini məbədi, məzarlıqları qorunub saxlanılır, onlara qarşı heç bir hörmətsizlik edilmir...

### Azərbaycana məxsus mədəni mülkiyyət talan edilib

Amma bu cür tolerant yanaşmanın qarşılığında Ermənistan milli-mənəvi dəyərlərimizə, dinimizə qarşı dözümsüzlük, düşmənçilik nümayiş etdirib. Qanunsuz şəkildə illərlə işğal altında saxladığı torpaqlarımızda xalqımıza məxsus bütün dini ocaqları, məscidləri, məzarlıqları, tarixi, mədəni abidələri dağıdıblar...

Bu günə qədər Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi azad edilmiş ərazilərdə 400-dən çox abidənin dağıdıldığını müəyyən etmişdir. Bu ərazilərdəki abidələrin ümumi sayı 3000-ə qədərdir. Azərbaycana məxsus mədəni və dini mülkiyyət talan və təhqir edilmiş, dəyişdirilmiş və qanunsuz olaraq Ermənistana daşınmışdır. Azad edilmiş ərazilərdə 100 mindən çox mədəniyyət nümunəsinin olduğu 22 muzey və muzey filialı məhv edilmişdir.

Erməni millətçiləri xalqımızın tarixi yaddaşını yox etmək, qədim Azərbaycan torpaqlarında türk-müsəlman mədəniyyətinin izlərini silmək üçün hər cür namərdliyə əl ataraq çirkin əməllərini illər boyu davam etdiriblər. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Ermənilər dini dəyərlərimizə hörmətsizlik edərək Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla azərbaycanlıların heysiyyətləri ilə oynayıblar.

Mütəxəssislər işğal olunmuş ərazilərdə qalan və islam dövrünə aid olan tarixi abidələrin ermənilər tərəfindən xüsusi amansızlıqla dağıdılmasının əsas səbəbini onların üzərində müsəlman epiqrafiyası ilə yazıların olması ilə izah edirlər. Bildirirlər ki, bu abidələri erməniləşdirmək və qeyri-Azərbaycan abidələri kimi təqdim etmək mümkün olmadığı üçün onlar bu cür vəhşiliyə əl atıblar.

### Alban irsi xalqımızın sərvətidir

Ermənilərin həyata keçirmək istədikləri əsas məkrli niyyətlərdən biri Azərbaycan ərazilərindəki Qafqaz alban irsinə yiyələnmək olub. Bu səbəbdən də Qarabağda yerləşən bütün alban məbədlərində özününküləşdirmə, tarixi faktların saxtalaşdırılması ilə məşğul olublar. Onlar bu əməlləri ilə həmin ərazilərə olan iddialarını gücləndirmək, saxta faktlar təqdim edərək dünyanı bu yalanlarına inandırmağa çalışıblar.

Tarixi reallıqdır ki, hələ XIX əsrdə Qafqaz Albaniyasının mədəni irsi üzərində erməni icmasının gücləndirilməsi kimi məkrli məqsədlər güdülüb. Və hələ o zamanlardan ermənilərin bura gəlmə yox, yerli xalq olması yalanına "həqiqi don" biçmək üçün Qarabağda Gəncəsər monastırında, Gədəbəy və digər bölgələrdəki alban məbədlərində alban xaçları oğurlanıb, erməni Qriqorian xaçı ilə əvəz edilmişdi. Hazırda da riyakar ermənilər bu saxtakarlığı davam etdirməyə çalışır, Qafqaz alban məbədlərinə sahiblik iddiası ilə çıxış edirlər.

Mənfur düşmənin talan etdiyi, saxta izlər saldığı və yiyələnmək istədiyi belə məbədlərdən biri də Kəlbəcər rayonunun Vəng kəndi ərazisindəki Xudavəng və ya Dədəvəng kompleksidir. Ermənilər monastırın zənglərini, xaç daşlarını, qədim əlyazmaları və digər qiymətli əşyaları sökərək qeyri-qanuni olaraq Ermənistana aparıblar. Amma tarix də, həqiqət də, faktlar da sübut edir ki, Qafqaz Albaniyasına aid olan qədim abidələr, kilsələr Azərbaycan xalqının tarixi-mədəni sərvətidir.

Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad edilməsi ilə əlaqədar xalqa müraciətində vurğuladı ki, tarixə baxmaq kifayətdir, hər kəs görsün ki, 1830-cu illərdə çar Rusiyası alban kilsəsini ləğv etdi, alban kilsəsinin bütün mülkiyyətini erməni Qriqorian kilsəsinə verdi və erməni keşişləri, onların havadarları bu kilsələri mənimsəməyə başladılar: "Qafqaz Albaniyasının tarixini silmək, unutdurmaq onların başlıca vəzifəsi idi. Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elmi ictimaiyyətə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq".

### Ermənistan əməllərinə görə hüquqi müstəvidə də cavab verəcək

Ermənilər işğal dövründə torpaqlarımızda qanunsuz arxeoloji qazıntılar da aparıblar. Onlar həmin dövrdə Ağdam rayonunun Şahbulaq qalası yaxınlığında qanunsuz arxeoloji qazıntılar zamanı tapılan qiymətli mədəniyyət nümunələrini oğurlayaraq Ermənistana daşıyıblar.

Ermənistan tərəfindən işğal olunan torpaqlarımızda yerləşən digər tarixi, dini, mədəni abidələrimiz kimi, Azıx mağarası da vandalizmə, saxtalaşdırmaya məruz qalıb. İşğalçılar mağarada Azərbaycan izlərini itirmək, onu özlərinin tarixi ilə bağlamaq üçün qeyri-qanuni olaraq arxeoloji tədqiqatlar aparmaq üçün xarici ölkələrdən alimlər dəvət ediblər.

Azərbaycan hərbçiləri Xocavənd rayonunun işğaldan azad edilmiş Azıx kəndindəki evlərdən birinə baxış zamanı üzərində "Azıx" yazılmış və içərisində arxeoloji materialların olduğu qutular aşkar etmişdilər. Məlum olmuşdu ki, bu qutularda işğal müddətində dünya əhəmiyyətli abidə, Paleolit dövrünə aid ibtidai insan düşərgəsi olan Azıx mağarasında Ermənistan və digər ölkələrin alimlərinin apardıqları qanunsuz arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş tapıntılar qablaşdırılıb.

Erməni vandalları tərəfindən törədilən bu vəhşiliklər "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının, "Silahlı münaqişələr zamanı mədəni mülkiyyətin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının 1999-cu il protokolunun, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il tarixli Avropa Konvensiyasının tələblərinin pozulmasıdır.

Ermənistan tərəfindən mədəni irsimizə qarşı həyata keçirilən bütün bu vandalizm faktları barədə Xarici İşlər Nazirliyinin bəyanatında bildirilir ki, Azərbaycanın mədəni irsinə vurulmuş misli görünməmiş zərərin müstəqil bir missiya tərəfindən tam qiymətləndirilməsini təmin etmək Azərbaycan Hökuməti üçün prioritet məsələdir və Azərbaycan bu baxımdan UNESKO ilə sıx əməkdaşlıq edir.

Torpaqlarımızı işğaldan azad etməklə Prezident İlham Əliyev mədəni irsimizi də əsarətdən xilas etdi. Vətən müharibəsindəki Qələbə ilə Ermənistanın Azərbaycanın mədəni irsinə sahiblənmək planları iflasa uğradı. Tezliklə isə Ermənistan mədəni irsimizin qəsdən məhv edilməsi, mənimsənilməsi, dəyişdirilməsi və oğurlanması da daxil olmaqla törətdiyi bütün əməllərə görə hüquqi müstəvidə də cavab verəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***